*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 24 yanvar 2018-ci il № 6 (2222) Qiyməti 25 qəpik


## "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 955-VQ nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 955-VQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. həmin Qanunun 1.0.3-cü maddəsində nəzərdə tutulan başqa silahlı birləşmələrə aid dövlət orqanlarının (dövlət orqanlarının strukturuna daxil olan qurumların) siyahısı ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.3. həmin Qanunun 9.6-cı maddəsinə uyğun olaraq, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin dinc dövrdə, real təhdid, səfərbərlik və müharibə (silahlı münaqişə) dövrlərində maddi-texniki vasitələrlə təmin edilməsi qaydasını və tələbat normasını üç ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.6. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki:

3.1. "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikası Qanununun 1.0.3-cü maddəsinin ikinci cümləsində və 13.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

3.2. həmin Qanunun 9.5-ci və 9.6-cı maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

3.3. həmin Qanunun 1.0.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Müdafiə Nazirliyi həyata keçirir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 19 yanvar 2018-ci il.

# Prezident İlham Əliyev 1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında Sərəncam imzalayıb



Sərəncama əsasən erməni-bolşevik silahlı dəstələrinin 100 il əvvəl azərbaycanlılara qarşı törətdikləri bəşəri cinayətlər barədə həqiqətlərin ölkə və dünya ictimaiyyətinə daha dolğun çatdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin Administrasiyası 1918-ci il azərbaycanlıların soyqırımının 100-cü ildönümünə həsr olunmuş tədbirlər planının hazırlanıb həyata keçirilməsini təmin etməlidir. Bundan başqa, Milli Məclisə soyqırımının 100 illiyi ilə bağlı xüsusi iclasın keçirilməsi tövsiyə edilir.

Sərəncamda bildirilir ki, erməni millətçiləri tarixin müxtəlif mərhələlərində mifik "Böyük Ermənistan" ideyasını gerçəkləşdirmək məqsədilə soydaşlarımıza qarşı etnik təmizləmə, deportasiya və soyqırımları həyata keçiriblər. Azərbaycan xalqının başına gətirilən ən dəhşətli faciələrdən biri də 100 il bundan əvvəl - 1918-ci ilin mart-aprel aylarında Bakı Sovetinin mandatı altında fəaliyyət göstərən daşnak-bolşevik silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla törədilmiş kütləvi qırğınlardır. Həmin günlərdə Bakı şəhərində, habelə Bakı qubernіyasına daxil olan digər şəhər və qəzalarda on minlərlə dinc sakin məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetirilib, yaşayış məntəqələri dağıdılıb, mədəniyyət abidələri, məscid və qəbiristanlıqlar yerlə-yeksan edilib. Sonrakı dövrlərdə daha da azğınlaşan erməni millətçiləri qeyri-insani əməllərini davam etdirib, Qarabağ, Zəngəzur, Naxçıvan, Şirvan, İrəvan və digər bölgələrdə kütləvi qətllər, talanlar və etnik təmizləmələr həyata keçiriblər.

Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti ermənilərin törətdikləri ağır cinayətlərin araşdırılması üçün Fövqəladə İstintaq Komissiyası yaradıb, komissiyanın üzə çıxardığı həqiqətlərin xalqın yaddaşında hifz edilməsi və dünya ictimaiyyətinə çatdırılması üçün bir sıra tədbirlər görüb. Lakin Xalq Cümhuriyyətinin süqutundan sonra bu proses dayandırılıb, baş verənlərin sona qədər təhqiq edilməsinin və ona müvafiq siyasi-hüquqi qiymət verilməsinin qarşısı alınıb. Yalnız 80 il sonra - 1998-ci il martın 26-da ümummilli lider Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanında həmin dəhşətli hadisələrə adekvat siyasi qiymət verilib və 31 mart "Azərbaycanlıların Soyqırımı Günü" elan edilib.

Ötən 20 il ərzində aparılmış araşdırmalar sayəsində çoxlu sayda yeni faktlar və sənədlər toplanıb, Quba şəhərində kütləvi məzarlıq aşkar olunub. Üzə çıxmış tarixi faktlar 1918-ci ilin mart-aprel aylarında erməni millətçilərinin həyata keçirdikləri qanlı aksiyaların coğrafiyasının daha geniş və faciə qurbanlarının sayının qat-qat çox olduğunu sübut edib.

# Müdafiə naziri Beynəlxalq Hərbi İdman Şurasının prezidenti ilə görüşüb

*Yanvarın 23-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə işgüzar səfərdə olan Beynəlxalq Hərbi İdman Şurasının (CISM) prezidenti polkovnik Abdulhakim Mohamed İsa Alşanunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə bütün istiqamətlərdə olduğu kimi, idman sahəsində də ölkəmizin böyük



nailiyyətlər qazandığını deyən Müdafiə naziri vurğulayıb ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın səyləri nəticəsində bu gün Azərbaycan dünyada idman dövləti kimi tanınır. Azərbaycanda idmanın inkişafı dinamik xarakter daşıyır və ölkənin ictimai həyatında mühüm rol oynayır. Son illərdə təkcə Bakıda deyil, respublikamızın bütün bölgələrində də idman kompleksləri tikilib.

Ölkəmizin təkcə idman sahəsindəki uğurları ilə deyil, həm də mühüm beynəlxalq yarışların təşkilində nailiyyətləri ilə dünyada tanındığını deyən nazir qeyd edib ki, bir sıra mötəbər beynəlxalq idman qurumları dünya səviyyəli yarışların Azərbaycanda keçirilməsinə tərəddüdsüz razılıq verirlər. Artıq Azərbaycanda keçirilən beynəlxalq idman yarışları silsilə xarakteri daşıyır.

Ölkəmizin CISM ilə əməkdaşlıqda maraqlı olduğunu vurğulayan Müdafiə naziri nümayəndə heyətinin bu səfərinin orduda idmanın inkişafına mühüm təkan verəcəyinə əminliyini bildirib.

CISM-in prezidenti də öz növbəsində bu gün Azərbaycanın dünyada həm də idman dövləti kimi tanındığını xüsusi qeyd edib. Azərbaycanın hər zaman CISM-ə böyük dəstək



verdiyini vurğulayan qonaq bildirib: "Biz əminik ki, Azərbaycan ilə Şura arasında olan səmimi münasibətlər bundan sonra da davam edəcəkdir".

Müxtəlif illərdə Azərbaycanda hərbçilər arasında idmanın bir çox növləri üzrə 4 dəfə dünya çempionatlarının keçirildiyini xatırladan CISM prezidenti ölkəmizin bu sahədə böyük təcrübəyə malik olduğunu vurğulayıb.

Görüşdə Azərbaycanın müvafiq qurumları ilə CISM arasında əməkdaşlığın daha da genişləndirilməsi ilə bağlı məsələlərə dair fikir mübadiləsi aparılıb.

Sonda Beynəlxalq Hərbi İdman Şurası tərəfindən təsis edilmiş "Ali zabit" medalı Müdafiə naziri general-polkovnik Zakir Həsənova, "Zabit" medalı isə Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkova təqdim edilib.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Bədbəxt hadisə nəticəsində hərbi qulluqçumuz həlak olub

Təlim mərkəzlərindən birində məşğələ keçirilən zaman bədbəxt hadisə nəticəsində həlak olan hərbi qulluqçu Əliyev Rahim Əhməd oğlu hərbi rituallara uyğun olaraq dəfn olunub.

Fakta bağlı Hərbi Prokurorluq tərəfindən araşdırma aparılır.

Müdafiə Nazirliyinin rəhbərliyi həlak olan hərbi qulluqçunun əzizlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verir!

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***23 yanvar 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 112 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Paravakar kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Kəmərli, Qaymaqlı, Cəfərli, Bala Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Mosesqex, Çinari, Aygedzor kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Ağdam, Koxanəbi, Muncuqlu, Qaralar kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Şuraabad, Tağıbəyli, Şıxlar, Baş Qərvənd, Cəvahirli, Abdinli, Sarıcalı, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# "Azərbaycan Türkiyənin terror təhdidinə qarşı əsaslı təhlükəsizlik narahatlıqlarını tam şəkildə anlayır"

*Azərbaycan terrorizmdən əziyyət çəkmiş dövlət kimi, terrorizmin bütün forma və təzahürlərini qəti şəkildə pisləyir və terrorizmə qarşı mübarizədə beynəlxalq ictimaiyyətin səylərini dəstəkləyir. Beynəlxalq və regional sülh və təhlükəsizliyin təmin edilməsi üçün terror təhlükəsinin kökünün kəsilməsi xüsusilə vacibdir.*

AZƏRTAC xəbər verir ki, bu fikirləri KİV-in sorğusuna cavab olaraq, Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev bildirib.

O deyib: "Türkiyə hökuməti tərəfindən bəyan edildiyi kimi, Türkiyə Silahlı Qüvvələri tərəfindən həyata keçirilən "Zeytun Budağı" əməliyyatının məqsədi Türkiyənin sərhədlərinin təhlükəsizliyini təmin etmək, bölgədəki terror təhlükəsini zərərsizləşdirmək və ərazidə yaşayan mülki insanları terror hücumları və təhdidlərindən qorunmaq məqsədi daşıyır".

Xarici İşlər Nazirliyinin sözçüsü deyib ki, Türkiyə dəfələrlə terror hücumlarına məruz qalıb və nəticədə çoxsaylı günahsız insanlar həlak olub. Azərbaycan Türkiyənin terror təhdidinə qarşı əsaslı təhlükəsizlik narahatlıqlarını tam şəkildə anlayır: "Biz qardaş Türkiyə və Türkiyə xalqının bir daha heç zaman xain terror hücumlarına məruz qalmamasını arzu edir və diləyirik".

### Həzi Aslanov - 108

# Əfsanəvi sərkərdənin anım günü keçirildi

*Onun ölümündən illər ötsə də, əfsanəvi tankçımızın xatirəsi hər birimiz üçün əzizdir. Anadan olmasının 108-ci ildönümü mərasimində yaşanan izdiham da bunu deməyə əsas verir. Söhbət Azərbaycanın hərb tarixində əvəzsiz xidmətləri olan oğullarımızdan biri - 2 dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovdan gedir.*





Həzi Əhəd oğlu Aslanov 1910-cu ildə Lənkəran şəhərində anadan olub. Hərb sənətinin incəliklərini Bakı və Leninqrad hərbi məktəblərində (1924-1930-cu illərdə) öyrənən həmyerlimiz müharibənin ilk günlərindən döyüşlərdə iştirak edib. Əvvəlcə Ukraynada, sonra isə Moskva ətrafındakı döyüşlərdə fərqlənir. Bu döyüşlərdə fərqlənən sərkərdəmiz "Qırmızı Ulduz" ordeni ilə təltif edilir. Aslanovun döyüşçüləri Katelnikovo yaxınlığında düşmənin 30 həmləsini dəf edərək 30 tank və 50 piyada maşınını sıradan çıxarır. Bu döyüşdəki şücaətinə görə podpolkovnik Həzi Aslanov "Sovet İttifaqı Qəhrəmanı" adına layiq görülür. O, daim hərbi biliklərini artırmağa səy göstərirdi. Zirehli Tank Qoşunları Akademiyasının birillik təhsil proqramını qısa müddətdə mənimsəyərək yenidən 35-ci qvardiya tank briqadasına qayıdır və 1944-cü ildə ona tank qoşunları general-mayoru ali rütbəsi verilir. Stalinqraddan Baltikyanı sahillərədək irəliləyən general Aslanov Latviyanın Liepay rayonunda qəhrəmancasına həlak olur. 1944-cü ildə ölməz sərkərdə ikinci dəfə yüksək ada təqdim edilsə də, SSRİ hərbi rəhbərliyindəki erməni əsilli Baqramyan buna mane olur. Lakin ölümündən 47 il sonra - 1991-ci ildə ədalət bərpa olunaraq ikinci dəfə "Sovet İttifaqı Qəhrəmanı" adına layiq görülür və bu nailiyyəti əldə etmiş ilk və yeganə azərbaycanlı olaraq tarixə adı yazılır.

Əfsanəvi komandirin abidəsi önünə əklillərin qoyulması ilə başlanan anım tədbirində ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçən şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edildi.

Tədbiri giriş sözü ilə açan Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev məşhur sərkərdənin ömür yolu və qəhrəmanlığı barədə geniş məlumat verdi. Xalqımızın faşizm üzərində qazandığı qələbənin əsas memarlarından biri olan Həzi Aslanovun əvəzsiz xidmətlərindən bəhs edən idarə rəisi İkinci Dünya müharibəsi zamanı öz hünəri və rəşadəti ilə seçilən azərbaycanlılar arasında Həzi Aslanovun da xüsusi fərqləndiyini bildirdi.

Müasir gəncliyimizin qəhrəman döyüşçüdən çox şey öyrənməli olduğunu söyləyən general-mayor Rasim Əliyev belə tədbirlərin gənclərimizin vətənpərvərlik ruhunun yüksəldilməsində zəruri rol oynadığını vurğuladı. Qeyd etdi ki, onun komandirlik xüsusiyyəti gənc kursantlarımız, eləcə də hazırkı komandirlərimiz üçün çox gözəl örnəkdir.



Daha sonra Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini Cəlil Xəlilov çıxış edərək Həzi Aslanovun misilsiz hərbi xidmətlərindən bəhs etdi və onun ömür yolunun hər bir gəncə ən dəyərli nümunə olduğunu bildirdi. "Biz zabitlər belə bir sərkərdəmiz olduğuna görə qürur duyuruq. Onun keçdiyi döyüş yolu hər birimiz üçün bir tarixdir".

Faşizm üzərində tarixi qələbənin qazanılmasında yüz minlərlə həmvətənimizin iştirak etdiyini vurğulayan Cəlil Xəlilov bu müharibədə Azərbaycanın da böyük rolu olduğunu qeyd etdi.

Qəhrəmanın nəvəsi Emin Aslanov ailə üzvləri adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlığını bildirdi.

Tədbirdə ölməz sərkərdənin silahdaşları da iştirak edirdilər. Nəsimi rayon veteranlar təşkilatının sədri İsmayıl Fərəcov əfsanəvi komandirin döyüşlərdə həqiqi bir lider kimi özünü hərtərəfli göstərdiyini vurğuladı. Müharibə veteranı Əlikişi Cümşüdov isə Həzi Aslanovla Volqoqrad yaxınlığında döyüşlərdə çiyin-çiyinə iştirak etdiyini bildirdi.

**Leytenant**
**Fuad CƏFƏROV,**
**"Azərbaycan Ordusu"**

## Beynəlxalq Hərbi İdman Şurasının nümayəndə heyəti Azərbaycanda səfərdədir

Beynəlxalq Hərbi İdman Şurasının (CISM) prezidenti polkovnik Abdulhakim Mohamed İsa Alşanunun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycanda işgüzar səfərdədir.

Yanvarın 22-də nümayəndə heyəti Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə gül dəstələri qoyub.

Görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər çiçəklər düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn nümayəndə heyəti Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Yanvarın 25-dək davam edəcək səfər çərçivəsində CISM nümayəndə heyətinin Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, eləcə də Gənclər və İdman Nazirliyində, Milli Olimpiya Komitəsində görüşləri nəzərdə tutulur.

Görüşlərdə CISM ilə ölkəmizin müvafiq qurumları arasında əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılacaqdır.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

## Generalın adı qəhrəmanlıq simvoluna çevrilib

*Yanvarın 22-si İkinci Dünya müharibəsinin görkəmli sərkərdələrindən biri, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun doğum günüdür.*

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu münasibətlə qəhrəmanın Lənkəran şəhərindəki ev-muzeyində anım mərasimi keçirilib.

Ümumtəhsil məktəblərinin müəllim və şagird kollektivlərinin, ziyalıların, ictimaiyyət nümayəndələrinin qatıldığı tədbirdə qəhrəmanın xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edənlər görkəmli sərkərdənin İkinci Dünya müharibəsində göstərdiyi misilsiz şücaətindən, qəhrəmanlığından danışıblar.

Qeyd olunub ki, 34 yaşında iki dəfə Sovet İttifaqı Qəhrəmanı adına və general rütbəsinə layiq görülən həmyerlimizin adı qəhrəmanlıq simvoluna çevrilib. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə general Həzi Aslanovun 70 illik yubileyində Lənkəran şəhərində qəhrəmanın möhtəşəm abidəsi ucaldılıb.

Muzeyin direktoru Tamara Fətullayeva cəsur generalın şərəfli ömür yolundan söz açaraq, iştirakçıları burada toplanmış eksponatlarla tanış edib.

"Gənc Aslanovçular klubu"nun üzvləri qəhrəmanın büstü önündə Azərbaycan şairlərinin Həzi Aslanova həsr etdikləri şeirləri söyləyiblər.

## Ön xətdən reportaj

# “Vətəni qorumaq öz mənliyini, namusunu, şərəfini qorumaqdır”



“Vətəni qorumaq öz mənliyini, namusunu, şərəfini qorumaqdır”.

Bu sözləri "N" hərbi hissəsinin düşmənlə təmas xəttində xidmət aparan əsgərlərindən eşitdim. Zabit Cavid Fərhadovla birgə döyüş mövqeyinə gedən yol diqqətimi çəkir. Səngərlər elə dərin və genişdir ki, piyadalarla yanaşı, maşınlar da rahat və təhlükəsiz hərəkət edə bilir. Zabit bildirir ki, bu yolla gedib-gələn, ərzaq daşıyan və digər döyüş maşınlarını düşmən qəti şəkildə izləyə bilmir. Həmçinin o, əsgərlərin uğurlu xidmətindən də fərəhlə danışır:

- Hərbi xidmətə gələn gənclər vətənpərvər, mərd, cəsur olurlar. Verilən tapşırıqları vaxtında və dəqiqliklə yerinə yetirirlər. Döyüş növbələrində ayıq-sayıq xidmət aparırlar. Yaxın iki ay ərzində əsgərlərimizin sayıqlığı nəticəsində təxribat törətməyə cəhd edən düşmənə layiqincə cavab verilib. Belə əsgərlərlə xidmət aparmaqdan qürur duyuram. Mən inanıram ki, bütün gənclərimiz vətənpərvərdir. Çünki, işğala olan torpaqlarımızı, Xocalı hadisələrini düşünən hər bir Azərbaycan gənci düşmənə nifrət hissi ilə yaşayır və qisas almaq üçün əmr gözləyir.

Həmsöhbətimin kifayət qədər təcrübəli, savadlı və bacarıqlı zabit olduğu hiss olunur. Onun aprel döyüşlərində iştirak etdiyini və göstərdiyi şücaətlərə görə Ali Baş Komandan tərəfindən "İgidliyə görə" medalı ilə təltif olunduğunu öyrənirəm... Hərbi hissədən yola düşəndə hava buludlu və soyuq idi. Bölməyə çatanda isə günəş qırmızı şüalarını ətrafa saçırdı. Buludlar dağılmış, mavi səmanın gözəlliyi üzə çıxmışdı. Vətən keşikçiləri ilə bir arada olmağımdan mən də sevincli, qürurluyam. Qeyri-ixtiyari olaraq göy üzünə baxıb o səfalı guşələrimizin düşmən tapdağında xarabalığa döndüyünə heyifsilənirəm. Bol bərəkətli sahələrin düşmən əli ilə yandırılaraq kül olmasına sanki təbiət də yas tutub ağlayır. Xəyalımda səmaya səslənirəm: "Az qalıb, bu həsrət bitəcək, yenə də o yerlərdə güllər açacaq, Novruz tonqalları çatılacaq, toy-büsat səsləri aləmi başına götürəcək". Bu xoş düşüncələrimdən əsgərlərin gur səsi ayırır məni. Döyüş növbəsinə getməyə hazırlaşan heyətə son tapşırıqları verən zabit onlara bir sual ünvanlayır:

- Vətəni qorumaq nədir?

Sırada duran əsgərlərin hamısı bir ağızdan:

- Vətəni qorumaq - öz ana torpağını, el-obasını, yurdunu qorumaqdır.

Vətəni qorumaq - öz namusunu, şərəfini qorumaqdır.

Vətəni qorumaq - öz atanı, ananı qorumaqdır.

Vətəni qorumaq - Azərbaycan xalqının tarixini, mənəviyyatını, milli mədəniyyətini, milli iftixarını qorumaq deməkdir.

Bu şərəfli yoldur, bu şərəfli vəzifədir...

Bu sözlərdəki müqəddəslik, Vətən sevgisi, mərdlik qəlbimi isindirir. Bax, budur, Azərbaycan əsgəri! Vətən sevgisindən bəhrələnir, ona güvənən xalqından ilham alır.

Zabit şəxsi heyətə "Farağat!" komandası verərək özündən yuxarı rütbəli komandiri qarşılayır və döyüş mövqeyində heç bir hadisə baş vermədiyini məruzə edir. Leytenant Əhmədağa Əhmədzadə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin məzunudur. Nümunəvi xidmətinə görə komandanlıq tərəfindən "Təşəkkür"lə təltif olunub. Gənc zabit seçdiyi peşənin uşaqlıq arzusu olduğunu və bu seçimindən qürur duyduğunu bildirir:

- Hərbçi olmaq, Vətənin keşiyində dayanmaqdan daha müqəddəs vəzifə ola bilməz, - deyir. - Təhsil aldığım illər ərzində arzuladığım və sevdiyim peşənin sirlərinə yiyələnmək üçün hər zaman fəallıq göstərmişəm. Hərbi bilikləri yaxşı öyrənirdim ki, əsgərlərimə yaxşı komandir olum. Bu vəzifənin məsuliyyətini yaxşı dərk edirəm. Ordumuza layiqli zabit olmaq üçün var qüvvəmlə xidmət edirəm. Torpaqlarımızın keşiyində qətiyyətlə dayanmışıq, düşmənə göz açmağa imkan vermirik.

Leytenant Ə.Əhmədzadə ilə birlikdə bölmənin ərazisini gəzir, səngərləri, yataqxanaları və digər məişət otaqlarını müşahidə edirəm. Bölmədə ürəkaçan şərait olduğuna əmin oluram. Sosial şəraitlə yanaşı, ətrafdakı səliqə-sahman, əsgərlərin nizam-intizamı da burada xidmətin düzgün təşkilindən xəbər verir. Zabit, həmçinin silah və texnika ilə də yüksək səviyyədə təmin olunduqlarını vurğulayır.

Fürsət tapıb döyüş növbəsinə gedən əsgərlərlə də söhbətləşirəm. Əsgər Pünhan Abışzadə hərbi xidmətə Saatlı rayonundan çağırılıb. Düşməni məhv etməyə hər an hazır olduğunu deyərək, torpaqlarımızı göz bəbəyi kimi qoruduğunu bildirir:

- Döyüş növbəsində ayıq-sayıq dayanır, diqqətimi bir an belə düşməndən ayırmıram. Görməni məhdudlaşdıran dumanlı-çiskinli havalarda, gecə yarısında daha diqqətli olur, təhlükəli mövqelərə ciddi nəzarət edirəm. Düşmən atəşkəsi pozarsa, onları cavab atəşi ilə susdururuq. Biz onlardan qatqat güclüyük. Hər kəs əmin olsun ki, burada inamla dayanmışıq. Düşmən bir qarış belə irəli gələ bilməz.

Pünhanın sözləri bir daha təsdiq edir ki, ordumuzda Vətənini, xalqını, millətini sevən, torpaqlarımız uğrunda canından keçən mərd oğullar xidmət edir. Vətən sevgisindən, vətənpərvərlikdən güc alan cəsur oğulların hər biri mövqelərimizi inamla qoruyur. Düşmənə göz dağı olan bu igidlərdən biri də söhbətə qoşulur.

- Səngərdə xidmət etmək şərəflidir, - əsgər Səyədulla Əsədli deyir. - Hərbi xidmətə Biləsuvar rayonundan çağırılmışam. Həmyerlim Milli Qəhrəman Mübariz İbrahimovun ömür yolu mənə örnəkdir. Əsgəri formanı geydiyim gündən arzum ön xətdə xidmət etmək olub. Bunun üçün məşğələlərdə daha məsuliyyətli olurdum ki, bacarıqlı əsgər kimi formalaşım. Silahımın taktiki-texniki xüsusiyyətlərini, ondan düzgün istifadə etməyi, sərrast nişan almağı mükəmməl öyrənmişəm. Əgər döyüş əmri alaramsa, Mübariz kimi şücaət göstərib, düşməni doğma torpaqlarımızdan qovmaq üçün son damla qanıma qədər döyüşəcəyimə əmin ola bilərsiniz.

... Mübarizlərlə, Raquflarla, Samidlərlə, Turallarla, bütün şəhidlərimizlə fəxr etməyə haqqın var. Onlar Azərbaycan Ordusunun nəyə qadir olduğunu bütün dünyaya nümayiş etdirdilər, dillərə əzbər olan qəhrəmanlıq dastanları yazdılar. İndiki və gələcək bütün nəsillərə nümunə olacaq həyat yaşadılar. Elə bir qəhrəmanlıq göstərdilər ki, onların adları belə düşməni vahiməyə salır. Bu qəhrəmanları özlərinə örnək bilən əsgərlərimizin hər biri düşmənə göz dağıdır.



Vətənə xidməti özünə şərəf borcu bilən əsgər Məhəmmədəli Həsənov isə hərbi xidmətə Xəzər rayonundan çağırılıb. O da xidmətində möhkəm olduğunu, düşmən qarşısında ayıq-sayıq dayandığını deyərək, əsgəri xidmətdə qazandığı üstün keyfiyyətlərdən də danışır:

- Əsgəri xidmət hər birimizin Vətənə övlad borcudur. Qoynunda böyüyüb, boya-başa çatdığımız ana Vətənimizə xidmət etmək ən şərəfli vəzifəmizdir. Bu yaşa kimi havası, suyu, çörəyi ilə böyüdüyümüz Vətən, bü gün bizdən hünər gözləyir. Bütün xalq, millət bizə inanır, ümid bəsləyir. Bu inamı doğrultmaq üçün əlimizdən gəldiyi qədər məsuliyyətli xidmət aparırıq. Əsgəri xidmət böyük bir məktəbdir. Bu məktəbdə möhkəm dostlar qazanırsan, dözümlülük, mərdlik, möhkəmlik öyrənirsən. Nümunəvi xidmətimlə həm ailəmin, həm də komandirlərimin başını uca tuturam.

... Səngərdə addımlayıram. Neçə-neçə qəhrəmanın cəng yeri, düşmənə məzar olan müqəddəs yerlərə Azərbaycan əsgəri şaxta, boran bilmədən keşik çəkir. Şahidi olursan ki, mərd oğullarımız mətinliklə düşmən qarşısında dayanıblar. İstənilən an düşmənə ağır zərbələr endirməyə hazırdırlar. Əsgər Baba Məmmədov da belə oğullardandır. Əslən Cəlilabad rayonundan olan Baba da döyüş əmrinə hər an hazır olduğunu deyir.

- Xidmətim uğurla davam edir. Heç nədən korluq çəkmirik. Hər cür şəraitimiz var. Komandirlərimiz bizə doğma münasibət bəsləyir. Silahlardan istifadə etməyi və digər hərbi vərdişləri öyrətməklə yanaşı, qayğılarımızla da yaxından maraqlanırlar. Bir sözlə, əsl ailə mühitində xidmət edirik. Ali Baş Komandanımızın əmri ilə torpaqlarımızı işğaldan azad edib, Qarabağımızda qələbə marşları oxuyacağımız günü səbirsizliklə gözləyirik.

Əsgərin dediklərinə özüm də şahid oluram. Bölmədə komandir-əsgər münasibətləri könlümü oxşayır. Belə sağlam mühitdə xidmət aparmaq qazanılan uğurlara əsas təminatdır.

Budur, bir nəfər də döyüş növbəsini digər əsgər yoldaşına təhvil verir. Təhvil-təslim prosesi qaydalar çərçivəsində, komandirin müşahidəsi altında baş tutur. Əsgər Amil Dəmirov növbə zamanı heç bir hadisə baş vermədiyini məruzə etdikdən sonra növbəni təhvil verir. Əsgəri xidmətə Salyan rayonundan çağırılan Amildən xidməti barədə soruşuram.

- Növbə zamanı düşməni bir an da nəzarətsiz buraxmadım, - əsgər deyir. - Döyüş növbəsinə ilk çıxdığım gün mənim də yaddaşımdan silinməyəcək. Əlimdə silah, qarşımda isə nifrət bəslədiyim düşmən dayanmışdı. Qardaş-bacılarımı, nənə-babalarımı qətlə yetirən vəhşilərə atəş açmamaq üçün özümü güclə saxlamışdım. Lakin qisas günü onların biri də hədəfimdən yayınmayacaq.

Söhbətləşdiyim bütün əsgərlərin düşmənə qəzəbi, nifrəti gözlərindən oxunurdu. Bu gözlərdə körpələrimizin, cavanlarımızın, qocalarımızın, gözü yaşlı analarımızın qisası alovlanır. Bu alov, Vətən sevgisi ilə bütünləşərək igid oğullarımızın gücünə güc qatır, hər birinə yenilməzlik, qəhrəmanlıq aşılayır. Hamımızın ürəyini dağlayan bu atəş tezliklə işğaldan azad olunan torpaqlarımızda dinəcək, səfalı guşələrimizin təmiz havasında sərinlik tapacaq. O günü bizə bəxş edəcək oğullarla sağollaşmağın vaxtı çatır. Onlara məsuliyyətli və şərəfli xidmətlərində uğurlar diləyib, Qarabağın dilbər guşələrində toy-bayram mərasimlərində görüşməyi arzu edirəm.



**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Coşqun CƏFƏROVUNDUR**

# 20 Yanvar - hüzn və qürur günümüz

## Şəhidlik örnəkdir

*Füzuli rayonunda müasir Azərbaycan tarixinin ən faciəli, eyni zamanda, xalqımızın azadlıq mübarizəsinin ən şanlı səhifələrindən biri olan 20 Yanvar faciəsinin 28-ci ildönümünün izdihamlı şəkildə qeyd edildiyinin şahidi oluruq.*



Faciənin ildönümü ilə əlaqədar rayonda keçirilən ümumrayon tədbirinin iştirakçıları, əmək kollektivlərinin nümayəndələri, sadə vətəndaşlar, bölgədə yerləşən hərbi hissələrin şəxsi heyətləri səhər saatlarından axın-axın Şəhidlər xiyabanına gələrək Vətənimizin azadlığı və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş igid həmyerlilərinin məzarları üzərinə gül-çiçək düzür, onların ölməz ruhu qarşısında baş əyirdilər.

Tədbirdə iştirak edən "N" hərbi hissəsinin hərbi qulluqçuları ilə görüşüb, 20 Yanvar faciəsi ilə bağlı təəssüratlarını öyrənmək imkanı qazanırıq.

**Kapitan Orxan Nəsirov:** "1990-cı ilin 20 yanvarında baş verən faciə Azərbaycan xalqına qarşı törədilmiş cinayət, əslində, bəşəriyyətə, humanizmə, insanlığa qarşı həyata keçirilmiş dəhşətli terror aktıdır. Bu gün, həmçinin xalqımızın mərdlik, vətəndaşlıq sınağından keçdiyi gündür. Ona görə də Vətənimizin müstəqilliyi, suverenliyi, azadlığı uğrunda canını qurban verən şəhidlərimizin yad edilməsi hər birimizin ilk növbədə vətəndaşlıq borcudur. Bura elə bir məkandır ki, gələnlər şəhidlərin ruhu qarşısında baş əyərək and içirlər: "Vətənimizi sizin kimi sevəcək və qanınızı yerdə qoymayacağıq."

**Baş leytenant Niyət Şirəliyev:** "Bildiyiniz kimi, totalitar Sovet rejiminə qarşı milli azadlığımız uğrunda mübarizəyə qalxan dinc əhaliyə həmin günlərdə divan tutuldu, kütləvi terror nəticəsində yüzlərlə günahsız insan qətlə yetirildi və yaralandı. Bununla da rejimin cinayətkar mahiyyəti bütün dünyaya bir daha nümayiş etdirildi. Milli birlik və vətənpərvərliyin simvoluna çevrilən 20 Yanvar faciəsi xalqımızın öz suverenliyi uğrunda apardığı mübarizənin şərəf tarixidir. Söhbətimizin bu yerində ümummilli liderimiz Heydər Əliyevin şəhidlərimiz haqqında söylədiyi fikirlər yadıma düşür: "20 Yanvar faciəsində həlak olanlar xalq qəhrəmanlarıdır, onlar millətimizin qəhrəmanlarıdır. ...Onların şəhid olması xalqımızın qəhrəmanlıq rəmzidir. Onların tökülən qanı bütün xalqımızın qanıdır. O qanın hər damcısında xalqımızın qüdrəti, qəhrəmanlığı var, xalqımızın milli azadlıq, müstəqillik arzuları vardır".

**Baş leytenant Zaur Abdullayev:** "Bu günün əhəmiyyəti xalqımız, millətimiz üçün misilsizdir. Həmin faciəli günlərdə öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladları canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Böyük itkilərlə, günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar faciəsi cinayətkar imperiya rəhbərliyinin Azərbaycana qarşı xəyanətkar siyasətinə dözməyən, öz azadlığına, müstəqilliyinə can atan xalqımızın mübarizliyini, əyilməzliyini, məğrurluğunu nümayiş etdirdi."

**Gizir Xəyal Əliyev:** "Müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qoruyub saxlamaq bir o qədər çətindir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi də indiyə qədər yürüdülmüş mənfur siyasətin davamıdır. Ancaq Azərbaycan müstəqilliyini əldə etdikdən sonra Ümummilli Liderimizin və Ali Baş Komandanımızın xidmətləri sayəsində indi hər kəsin fəxr edəcəyi qüdrətli ordumuz formalaşıb. Bütün şəhidlərimizin qisasını almağa hazırıq".

**Əsgər Mahir Abbasov:** "Dünyada ən müqəddəs duyğu Vətəni sevmək, qoynunda boya-başa çatdığın torpağın müqəddəsliyini hiss edib yolunda canından keçməyə hazır olmaqdır. Azərbaycanın milli azadlığı uğrunda mübarizədə qəhrəmanlıq göstərmiş şəhidlərimizin müqəddəs xatirəsi xalqımızın qəlbində daim yaşayacaqdır".

**Əsgər Elxan Əmrahov:** "Müstəqilliyimiz, ərazi bütövlüyümüz uğrunda qurban gedənlər müasir qəhrəmanlıq tariximizi yaratdılar və hər birimizə örnək oldular. Doğrudan da, qəhrəman o insandır ki, özünü həyat uğrunda mübarizələrdə ölümə qalib gəlməklə təsdiqləyir. Biz də ölümə qalib gəlməklə, torpaqlarımızı işğaldan azad etməyə hazırıq."

## Hərbi hissədə anım tədbiri



Azərbaycan xalqının qan yaddaşına əbədi həkk olunan 20 Yanvar faciəsinin 28-ci ildönümü "N" hərbi hissəsində də şəhidlərin xatirəsinə ehtiramla başlandı. Füzuli Dövlət Dram Teatrının kollektivi faciə ilə əlaqədar səhnələşdirdiyi "Şəhidlər ölməz" adlı ədəbi-bədii kompozisiya hərbi hissənin şəxsi heyəti qarşısında nümayiş etdirildi. Ssenari müəllifi teatrın direktoru, əməkdar mədəniyyət işçisi Vaqif Vəliyev, quruluşçu rejissoru Asif Şirinov, musiqi tərtibatçısı Nizami Süleymanzadə, quruluşçu rəssamı isə Ellinaz Balaşova olan kompozisiya şəxsi heyət tərəfindən böyük maraqla qarşılandı.




Tamaşa təqdim edildikdən sonra hərbi hissənin zabiti Taleh Balabəyov çıxış edərək, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet ordusu tərəfindən Bakıda həyata keçirilən qırğının səbəbləri və ağır nəticələri barədə ətraflı danışdı: "Keçmiş Sovet dövlətinin hərb maşınının həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi vəhşi terror aktı insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi bəşər tarixində qara səhifə olaraq qalacaq. Üzərimizə düşən əsas vəzifə odur ki, bu şərəfli tarixi unutmayaq və gələcək nəsillərə olduğu kimi çatdıraq. Ədəbi-bədii kompozisiya şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksək səviyyədə saxlanılmasına, eyni zamanda 20 Yanvar şəhidləri başda olmaqla, Vətən uğrunda döyüşlərdə şücaət göstərmiş bütün şəhidlərimizin tanıdılmasına, onların fədakarlıqlarının təbliğinə xidmət edir. Ona görə də teatrın kollektivinə komandanlıq adından dərin minnətdarlığımı bildirirəm".

Sonda teatr kollektivinə fəxri fərmanlar təqdim olundu və belə tamaşaların şəxsi heyətdə hərbi vətənpərvərlik ruhunun aşılanmasında böyük rol oynadığı xüsusilə vurğulandı.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Coşqun CƏFƏROVUNDUR**

## Moskvada 20 Yanvar faciəsi yad edilib

*1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakı şəhərinə keçmiş Sovet İttifaqının qoşun hissələri, fövqəladə vəziyyət elan edilmədən yeridilərək, dinc əhaliyə divan tutulub, yüzlərlə insan qətlə yetirilib, yaralanıb və itkin düşüb. Bu faciənin 28-ci ildönümü ilə əlaqədar Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində, Azərbaycan Respublikasının səfirliyində tədbir keçirilib. Tədbirdə müxtəlif dövlətlərin nümayəndələri və hərbi qulluqçuları, azərbaycanlı gənclər iştirak ediblər.*

Tədbirdə əvvəlcə 20 Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycanın Rusiyadakı fövqəladə və səlahiyyətli səfiri Polad Bülbüloğlu çıxış edərək vurğulayıb ki, bu dəhşətli gecə xalqımızın yaddaşından heç vaxt silinməyəcək, şəhid olmuş faciə qurbanlarının xatirəsi əbədi yaşayacaq. Daha sonra o qeyd edib ki, Azərbaycanın Moskvadakı səfirliyi yerləşən bu binada, 1990-cı il yanvarın 21-də ümummilli liderimiz Heydər Əliyev baş vermiş qətliamın bəşəri cinayət olduğunu bəyan edib.

Çıxışının sonunda, səfir gənclərə üz tutaraq deyib: "Burada çoxlu azərbaycanlı gənclər olduğuna görə, bir daha qeyd etmək istəyirəm ki, Azərbaycan xalqı bu faciəni heç vaxt unutmayacaq. Nə qədər ki, bu xalq yaşayacaq, Vətənimizin azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olan soydaşlarımız da unudulmayacaq."

**Kursant**
**İbrahim MƏMMƏDBƏYOV,**
**Rusiya Müdafiə Nazirliyi**
**Hərbi Universitetinin**
**tələbəsi**

# Məşhur tankçı generalın xatirəsi yad edildi

*Yanvarın 22-də Hərb Tarixi Muzeyində 2 dəfə Sovet İttifaqı Qəhrəmanı, 3 Qırmızı Bayraq ordeni, 2-ci dərəcəli Suvorov ordeni, Aleksandr Nevski ordeni, 1-ci dərəcəli Vətən müharibəsi ordeni, 2 Qırmızı Ulduz ordeni və medallarla təltif olunan general-mayor Həzi Aslanovun anım günü qeyd olundu.*



Tədbirdə Müdafiə Nazirliyi, xüsusi təyinatlı təhsil müəssisələrinin və ictimaiyyətin nümayəndələri iştirak edirdilər.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Hərb Tarixi Muzeyinin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə tədbiri açıq elan edərək əfsanəvi generalın həyat və döyüş yolu haqqında danışdı. "Həzi Aslanov 1910-cu il yanvarın 22-də Lənkəran şəhərində dünyaya göz açıb. Hər zaman orduya, hərbə xüsusi hörməti və sevgisi olub. Böyük Vətən müharibəsinin ilk günlərindən döyüşlərdə iştirak edən kapitan Aslanov Moskva ətrafındakı hərbi əməliyyatlarda göstərdiyi igidliyə görə "Qırmızı Ulduz" ordeni ilə təltif edilib. Aslanovun döyüşçüləri Kotelnikovo yaxınlığında gedən döyüşlərdə böyük şücaət göstəriblər. Bu fədakarlığa görə, Həzi Aslanov 1942-ci il dekabrın 22-də Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. 1944-cü il martın 13-də isə ona tank qoşunları general-mayoru rütbəsi verilib. Həzi Aslanov 1945-ci il yanvarın 24-də Litvanın Yelqava şəhəri yaxınlığında gedən döyüşdə qəhrəmancasına həlak olub".

Sonra əməkdar mədəniyyət işçisi, Azərbaycan Yazıçılar Birliyinin üzvü Zəminə Xınalı çıxışında qeyd etdi ki, tank qoşunları qvardiya general-mayoru H.Aslanov gələcək nəsillərə örnək olan dəyərli ömür yaşadı. O, nitqini xalqımızın ümummilli lideri Heydər Əliyevin Həzi Aslanov haqqında sözləri ilə bitirdi: "Həzi Aslanov öz qəhrəmanlıq, cəsurluq nümunələri ilə Azərbaycan xalqını dünyaya tanıtmış bir şəxsiyyətdir. Həm döyüşçü, həm sərkərdə, general, həm də vətənpərvər bir insan Vətəninə sədaqətlə son nəfəsinə qədər döyüşmüş, həlak olmuş həmvətənimiz Həzi Aslanov bizim üçün daim əziz olub və gələcək nəsillər üçün də əziz olacaqdır".

Respublikamızın veteran ictimaiyyətinin nümayəndələrindən Fazil Hacıyev, İsmayıl Fərəcov, Ağabala İsgəndərov və digərləri çıxış edərək əfsanəvi döyüşçü haqqında fikirlərini bölüşdülər.

Məşhur sərkərdənin həyat və döyüş yolunu əks etdirən qısametrajlı film nümayiş etdirildi.

Tədbir Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin çıxışları ilə yekunlaşdı.

**Leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

# Kəlbəcər şəhidlərinin xatirəsi əbədiləşdirilib




Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş Kəlbəcər şəhidlərinin xatirəsi əbədiləşdirilib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Kəlbəcər rayonundan olan 1500 məcburi köçkün ailəsi üçün Gəncə şəhərində salınmış yeni qəsəbədə abidə kompleksinin açılışı olub.

Tədbirdə Kəlbəcər rayon İcra Hakimiyyətinin başçısı Aqil Məmmədov, şəhid ailələrinin üzvləri, müharibə veteranları, respublikanın müxtəlif bölgələrində məskunlaşan Kəlbəcər sakinləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əvvəlcə Azərbaycanın suverenliyi uğrunda, eləcə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı həlak olmuş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib və onların ruhuna dualar oxunub. Abidə kompleksi önünə əklil qoyulub.

Bildirilib ki, Vətənin toxunulmazlığı və ərazi bütövlüyü uğrunda ən çox şəhid verən rayonlardan biri də Kəlbəcər olub. Mənfur düşmənin Dağlıq Qarabağa və ətrafdakı rayonlara hücumu zamanı 257 nəfəri mülki, 223 nəfəri isə hərbçi olmaqla, ümumilikdə 480 nəfər kəlbəcərli şəhid olub. Həmin şəhidlərdən 2-si - Sərdar Səfərov və Şahlar Şükürov ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

Qeyd edək ki, Kəlbəcər Şəhidlərinin Abidə Kompleksi rayon icra hakimiyyətinin təşəbbüsü ilə yaradılıb. Kompleksin ümumi ərazisi 0,26 hektardır. Qırmızı mərmərdən hazırlanan kompleksin mərkəzi hissəsi oval tağ formasındadır. Kompleksin sağ və sol divarlarında Azərbaycanın ərazi bütövlüyü uğrunda qəhrəmancasına həlak olmuş Kəlbəcər şəhidlərinin adları və soyadları, həmçinin Azərbaycanın milli qəhrəmanları Sərdar Səfərov və Şahlar Şükürovun qara mərmər üzərində şəkilləri həkk olunub. Kompleksin qarşısında iki fəvvarə qurulub, yaşıllıq salınıb, ətraf ərazidə abadlıq işləri görülüb.

# Qələbə günü görüşənədək!

*(oçerk)*

*"Uşaqlığım cəbhəyanı rayonlardan olan Ağdamın Novruzlu kəndində keçib. Mənim kimi orada böyüyüb boya-başa çatanların hər biri, yəqin ki, atəşkəsin pozulmasının, mütəmadi güllə səsinin şahidi olublar. Mən də güllə səsi eşidəndə pəncərəyə qaçar, həyəcanlı şəkildə atamdan nə baş verdiyini soruşardım. Sualımın cavabını və ömrümün mənasını o vaxtdan tapmışam".*



Bu sözləri ön xətdə xidmət edən, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Elvin Vəliyevlə söhbətimiz zamanı eşidirəm.

Elvin Ağdamın Novruzlu kəndində sadə bir ailədə dünyaya göz açıb. Böyüdüyü mühit müharibənin nə demək olduğunu ona da yetərincə anladıb.

Hündür boyu, idmançılara xas olan bədən quruluşu, gümrah və iti yerişi var. Sifətinin dərinliyindəki balaca gözlərindən sezilən kəskin baxışları, çöhrəsindəki sərtliyi, əsl döyüşçü görünüşü Vətənə sevgisini, düşmənə nifrətini büruzə verir. Ümumilikdə Elvinin görünüşü, əsgərləri ilə əsl komandirə xas davranışı onun mənəvi keyfiyyətlərindən xəbər verir.

Orta məktəbdə oxuyarkən müəllimlərindən, Qarabağ əlili olan atasından müharibə hekayətlərini mütəmadi dinləyən Elvin əsgər olmaq, düşməndən qisas almaq arzusuna düşür. Qarabağ müharibəsi illərində şəhid olan qonşularının, həmkəndlilərinin qanını, atasının ayaq və sinə nahiyələrindən aldığı güllə yarasının qisasını almaq istəyi bu gün düşmənlə üz-üzə dayanmasına səbəb olub. Ön xətt hərbi hissələrindən birində müddətli həqiqi hərbi xidmətini nümunəvi əsgər kimi başa vuran Elvin ordu sıralarından tərxis olunandan bir müddət sonra aprel döyüşləri baş verib. Bu zaman minlərlə gəncimiz kimi o da könüllü ordu sıralarına qatılmaq istəyib, lakin buna ehtiyac olmadığını bildiriblər.

Ordu sıralarına yenidən qatılmaq istəyini bildirdiyi zaman atası Elbrus kişinin və Xatirə ananın dəstəyini həmişə minnətdarlıqla xatırlayır.

Hərbə olan marağı, əsgərliyi dövründə nümunəvi xidməti onun peşə seçimini də qətiləşdirib. Vətən sevgisi, nizam-intizamı, silah və texnikanın xüsusiyyətlərinə dərindən bələd olması Elvinin bacarıqlı döyüşçü kimi tanınmasına gətirib çıxarıb.

"Xidmətimdən, ümumiyyətlə, Azərbaycan Ordusuna xidmət etməkdən çox qürurluyam. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun biz hərbçilərə göstərdiyi diqqət, qayğı nəticəsində xidmətimiz üçün hər bir şərait yaradılıb".

Gücünü Vətən sevgisindən alan gənc komandir hazırda Azərbaycan Ordusunun qüdrətli və yenilməz olduğunu bildirir. Həm də qeyd edir ki, hər bir komandirin uğurlarına zəmin yaradan əsas amil tabeliyindəki şəxsi heyətin inamını, etibarını qazanmaqdır.

"Əsgərlərimlə doğma qardaş münasibəti qurmuşuq. Hər biri nizam-intizamlı və qorxmazdır. Hər biri fədakarlığı ilə yaddaşıma həkk olunur. Məsələn, əsgər Kərim Kərimov bacarıqlı əsgər kimi xatirimdədi. Sumqayıt şəhərindən hərbi xidmətə çağırılmışdı. Tez qərarqəbuletmə qabiliyyəti vaxtında yerinə yetirmə bacarığı ilə seçilirdi".

Hazırda xidmətini inamla davam etdirən cəsur manqa komandiri zabit heyətinin etimadını doğruldan, bir sözlə, hərbi kollektivdə seçilənlərdən biridir. Xidmətində diqqətli, kollektivə qarşı qayğıkeş və nizam-intizamlıdır.

Gənc yaşda əsl döyüşçü kimi formalaşan Elvin Qarabağı tezliklə azad görmək arzusu ilə xudahafizləşirəm. Yeganə istəyim odur ki, tezliklə onunla Qələbə günümüzdə yenidən qovuşaq.

**Baş leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**Coşqun CƏFƏROVUNDUR**

*Azərbaycan Ordusu - 100*

# Xalq Cümhuriyyəti dövründə ordu quruculuğu

(II məqalə)

Hərbi Nazirliyin rəhbərliyi orduda xidmətin təşkilinin hüquqi əsasda nizamlanmasına xüsusi diqqət yetirirdi. Qısa müddət ərzində Azərbaycan Ordusunun yeni qanunvericilik bazasının yaradılması mümkün olmadığı üçün hərbi nazirin 1919-cu ilin əvvəlində imzaladığı əmrlə 1917-ci ilin yanvarın 1-dək keçmiş Rusiya imperiyasında qəbul edilmiş hərbi qanunvericilik aktları qüvvədə saxlanılırdı. Bura hərbi nizamnamələr, döyüş təlimatları, xidmətin bütün sahələrini tənzimləyən sənədlər, səfərbərlik, hərbi məhkəmə işlərinin aparılması üzrə təlimatlar və s. daxil idi. Ancaq bu qanunvericilik aktlarının Azərbaycan müstəqilliyi, milli orduda xidmətin bu və ya digər tələbləri ilə uyğun gəlməyən tərəfləri ləğv edilir və nazirin əmri ilə həmin məqamlar təkmilləşdirilir, ya da yenisi ilə əvəz edilirdi. Məsələn, nazir hələ 1918-ci il dekabrın 27-də 34 saylı əmri ilə hərbi qulluqçular arasında salamlaşmanın Azərbaycan dilində və azərbaycanlılar arasındakı salamlaşma ənənələrinə uyğun olaraq aparılmasını tələb edirdi. Yəni, salamlaşan şəxs "salam" deməli, qarşı tərəf isə "əleyküm salam" deyə cavab verməli idi. Əsgəri tərifləyərkən və ya ona minnətdarlıq bildirərkən "mərhəba" deyilməli, əsgər isə cavabında "çox sağ ol" deməli idi.

Azərbaycan dili orduda da dövlət dili elan edildi. Bununla bağlı hərbi nazir orduda xidmət edən qeyri-azərbaycanlı zabitlər qarşısında belə bir tələb qoydu ki, bir ay müddətində heç olmasa komanda sözlərinin azərbaycanca qarşılıqlarını öyrənsinlər və əsgərlərə Azərbaycan dilində komanda versinlər. Bir ay müddətində bu tələbi yerinə yetirə bilməyən zabitlər dərhal ordudan xaric edilməli idilər.

Azərbaycan dilinin öyrənilməsi və savadsızlığın ləğvi üçün orduda müvafiq kurslar yaradıldı və həmin kursların aparılmasına təcrübəli mütəxəssislər cəlb edildi.

Əsgərlərlə ünsiyyətin Azərbaycan dilində aparılması və onlara hərb işinin Azərbaycan dilində öyrədilməsi, şübhəsiz ki, şəxsi heyəti xidmətə daha yaxından bağlayır, onların mənəvi-psixoloji vəziyyətinə müsbət təsir göstərirdi. Bu məsələyə Hərbi Nazirliyin rəhbərliyi xüsusi diqqət yetirirdi.

Azərbaycan döyüşçüsünün mənəvi dünyasının yaradılmasında mənsub olduğu xalqın tarixi keçmişinin öyrənilməsinə, onun qəhrəmanlıq nümunələri üzərində tərbiyələndirilməsinə böyük əhəmiyyət verilirdi. Bu baxımdan S.Mehmandarov çox qiymətli fikirlər irəli sürmüşdü. Həmin fikirlərin mahiyyəti ondan ibarət idi ki, Azərbaycanın qəhrəmanlıq tarixi həm araşdırılmalı, həm də xalq kütlələrinə, o cümlədən qoşunların şəxsi heyətinə çatdırılmalıdır. S.Mehmandarov şübhə etmirdi ki, azərbaycanlılardan təşkil edilmiş olan hərbi qüvvələr öz xalqının qəhrəmanlıq tarixini yaxşı bilməli, ondan ibrət götürməlidir. Hərbi nazir bu istiqamətdə aparılan işlərdə ifratçılığa varmağa, milli tərbiyənin millətçiliyin qızışdırılması ilə bir səviyyədə tutulmasına razı deyildi. O, milli tarixi keçmişin öyrənilməsində yalnız sağlam hisslərin aşılanmasını və mütərəqqi xəttin izlənməsini əsas vəzifə sayırdı. S.Mehmandarov yazırdı: "Bolşevizmə qarşı mübarizənin istiqamətlərindən biri xalq içərisində sağlam milli hisslərin yaradılmasıdır. Azərbaycanın yaranmaqda olan gənc ordusu üçün bu xüsusilə lazımdır. Yalnız azərbaycanlılardan təşkil olunmuş hərbi qüvvələrimiz öz xalqının ümumdünya tarixinin səhifələrinə yazmış olduğu və bizdən daha çox Avropa xalqının xatırlayıb danışdıqları çoxlu igidlikləri, şərəfli döyüş keçmişini bilməlidirlər. Bir əsrdən də artıq davam edən rus ağalığından xilas olmuş türk xalqı bilməlidir ki, biz heç də həmişə əsarətdə olmamışıq, həm də öz iradəmizi Avropa və Asiyaya nümayiş etdirmişik. Güman edirəm türk tarixinin bilicilərindən kimsə xalqımızın müxtəsər tarixini və bu günümüzə qədər olan ən mühüm hadisələri əks etdirən kütləvi kitabçaların tərtib və nəşr edilməsinin tapşırılması faydalı olardı. Belə kütləvi tarixi nəşrlər xalq arasında və qoşunlarda geniş yayılmalı, bunun üçün hər bir kənd müəllimi, hər bir müsəlman zabit ondan geniş istifadə etməlidir.



Şəxsi heyətin mənəvi durumunun qaldırılması məqsədiylə qoşunların ümumi təlim tərbiyəsi çərçivəsində əsgərlərlə söhbətlər aparılmalı, onlara Azərbaycanın tarixi, hərbi andə sədaqət və s. mövzuların çatdırılması nəzərdə tutulurdu. Belə dərslərin aparılmasına ən yaxşı zabitlər və hissələrin mollaları cəlb edilirdilər.

Qoşunların şəxsi heyətinin milli tarixi köklərə bağlanması və onların mənəvi saflaşması baxımından Novruz bayramlarının umumordu miqyasında qarşılanmasının və keçirilməsinin təşkilinə diqqəti cəlb edirdi. Öz mövcudluğu dövründə Azərbaycan Ordusu iki dəfə Novruz bayramını qarşılamış və hər ikisini də təntənəli şəkildə keçirmişdi. Novruz bayramının qeyd edilməsi əsl bayram əhval-ruhiyyəsində həyata keçirilirdi. Hər iki bayram da qoşunların rəsmi keçidi ilə şəxsi heyətin yadında qalmışdı.

1919-cu ilin Novruz bayramı ərəfəsində hərbi nazirin imzaladığı əmrə əsasən şəxsi heyət üç gün təlimdən azad edildi. Bu əmrə əsasən bütün hissələrdə bayram süfrəsi açıldı və qoşunlara bayram yeməyi verildi.

Hərbi Nazirliyin bərpasının ilk günlərindən hərbi qulluqçuların geyim formasının da milliləşdirilməsi və onun Azərbaycan Ordusuna uyğunlaşdırılması üçün də zəruri işlərin görülməsinə başlandı və bunun üçün xüsusi komissiya yaradıldı. Komissiyanın işinə hərbi nazirin müavini general-leytenant Ə.Şıxlinski sədrlik edirdi. Komissiyanın hazırladığı geyim layihəsi 1919-cu il yanvarın 1-də hərbi nazirin əmri ilə rəsmi şəkildə təsdiq edildi. Ancaq buna qədər, Hərbi Nazirlik fəaliyyətə başlayarkən nazirin əmri ilə geyim formasında qismən dəyişiklik edilmişdi. Həmin dəyişiklik əsasən baş geyiminə aid idi. Nazir tələb edirdi ki, yeni geyim layihələri hazırlanana kimi furajkalar baş geyimi kimi istifadədən birdəfəlik götürülsün və o papaqla əvəz edilsin. Furajkaların papaqla əvəz edilməsi üçün nazir bir ay vaxt ayırmışdı.

Azərbaycan Ordusunda tətbiq edilən yeni geyim formasının maraqlı elementlərindən biri poqonlar idi. Həm hərbi qulluqçular, həm də orduda qulluq edən məmurlar poqon gəzdirirdilər və həmin poqonların üzərində ərəb əlifbası ilə "Azərbaycan" sözü yazılmalı idi.

Yeni dəyərlər üzərində qurulan ordunun yeni milli kadrlarının hazırlanması da Hərbi Nazirliyin rəhbərliyinin qarşısında dayanan mühüm vəzifələrdən biri idi. Bu vəzifənin həllinə nail olmaq üçün hələ türk qoşunlarının Azərbaycanda olduğu vaxt Gəncədə fəaliyyətə başlamış hərbi məktəbin fəaliyyəti yenidən quruldu və onun statusu artaraq Praporşiklər məktəbinə çevrildi. Məktəbdə təlim-tərbiyə prosesi də yeni statusa uyğun olaraq yenidən quruldu. Bu statusun mahiyyəti ondan ibarət idi ki, əgər əvvəlcə məktəbi bitirənlər ilkin zabit rütbəsini yalnız hissələrdə bir neçə ay xidmət etdikdən və zabitliyə layiq olduqlarını sübut etdikdən sonra alırdılarsa, Praporşiklər məktəbini bitirənlər dərhal ilkin zabit rütbəsi olan praporşik rütbəsinə layiq görülürdülər. Bu ilin sonunda isə praporşiklər məktəbinin bazasında Hərbiyyə məktəbi açıldı. Bundan başqa Azərbaycan Ordusuna milli hərbi kadrlar hazırlayan İstehkam məktəbi və Hərbi dəmir yolçular məktəbi və Hərbi feldşer məktəbi də açılmışdı.

Yaradıldığı ilk gündən Hərbi Nazirliyin qarşısında dayanan mühüm vəzifələrdən biri də xidmətə çağırış və səfərbərlik işinin təşkili məsələsi idi. Bu məsələnin həllinin başlıca çətinliyi ondan irəli gəlirdi ki, türk qoşunları Azərbaycanda olarkən ciddi ədalətsizliklərə yol verilməsi əhalidə əsgəri xidmətə qarşı böyük bir etimadsızlıq, təşviş və qorxu hissləri yaratmışdı. Digər tərəfdən də əvvəllər xidmətə cəlb olunanlara qarşı fiziki cəzaların tətbiq edilməsi, onların şəxsiyyətlərinin təhqir olunması, ən ali yaşayış normalarına malik olmamaları fərariliyin kütləvi şəkil almasına zəmin yaradırdı. Çağırış və səfərbərliyin təşkili yeni nazirliyin rəhbərliyi üçün nə qədər aktual idisə, fərariliyin qarşısının alınması və bunun üçün səmərəli tədbirlər sisteminin tətbiq edilməsi də o qədər vacib idi.

**Ehtiyatda olan polkovnik Mehman SÜLEYMANOV,
Silahlı Qüvvələrin Hərbi Akademiyasının Adyunktura və Elm şöbəsinin hərb tarixi üzrə dosenti, tarix elmləri doktoru**

# Xəbərlər:
## hadisələr, faktlar

### İran və Türkiyə ordularının baş qərargah rəisləri arasında telefon danışığı olub



Yanvarın 22-də İran Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general Məhəmməd Baqeri ilə Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general Hulusu Akar arasında telefon danışığı olub.

Telefon söhbəti zamanı generallar terrora qarşı birgə mübarizə istiqamətində aparılan hərbi əməliyyatları müzakirə ediblər.

İran mətbuatının məlumatına görə, telefon danışığı zamanı əsasən Türkiyə ordusunun "Zeytun budağı" əməliyyatı çərçivəsində Suriyanın Afrin bölgəsinə daxil olması müzakirə edilib.

Türkiyənin milli maraqlarına zidd addımlar atan silahlı terror qruplaşmasının sərhədə toplaşaraq təhlükəsizliyə təhdid törətməsi Ankaranın ciddi narahatçılığına səbəb olub. Bu səbəbdən də hərbi əməliyyat qaçılmaz idi.

### Əfqanıstanda son sutka ərzində 92 silahlı öldürülüb



Əfqanıstanın hökumət qüvvələri apardıqları əməliyyatlar zamanı son sutka ərzində azı 92 silahlının öldürüldüyünü iddia edir.

Əfqanıstan Müdafiə Nazirliyi əməliyyatların ölkənin şimalındakı Fəryab, Balh, Herat, Baqlan, Qunduz, qərbindəki Fərah, Nimroz, cənubunda Hilmənd, Zabul, Qəndəhar, şərqindəki Lağman, Lohar, Host və mərkəzi hissəsindəki Uruzqan əyalətlərində Hərbi Hava Qüvvələrinin dəstəyi ilə aparıldığını bildirib. Məlumatda, həmçinin əməliyyatlar zamanı dörd silahlının da əsir alındığı bildirilir.

Qeyd edək ki, 2014-cü ildə Amerikanın hərbi kontingenti Əfqanıstanı tərk etdikdən sonra ölkənin xeyli hissəsi Taliban" hərəkatının nəzarətinə keçib. Son zamanlar bəzi kənd rayonlarında üstünlüyə yiyələnən yaraqlılar böyük şəhərlər istiqamətində də hücumlarını davam etdirir. Həmçinin regionda İŞİD qruplaşması da aktiv fəaliyyət göstərir.

### İran ordusu hərbi təlimlərə başlayır



Yanvarın 22-də İran ordusu genişmiqyaslı hərbi təlimlərinə başlayıb.

Bu barədə məlumat verən İran ordusunun koordinasiya məsələləri üzrə komandan müavini kontr-admiral Həbibullah Səyarı bildirib. "Məhəmməd Rəsullah" adlı təlimlərə hərbi dəniz qüvvələri də cəlb ediləcək.

H.Səyyari diqqətə çatdırıb ki, 2 gün davam edəcək təlimlərin məqsədi ordunun döyüş qabiliyyətini artırmaqdır.

### Suriyadan Türkiyə ərazisinə atılan raketlər nəticəsində 1 nəfər ölüb, 46 nəfər yaralanıb



Suriya ərazisindən Türkiyənin Hatay vilayətinin Reyhanlı qəsəbəsinə atılan raketlər nəticəsində 1 nəfər ölüb, 46 nəfər yaralanıb.

Suriya ərazisində raketlərin atıldığı məkanlar artıq Türkiyə ordusu tərəfindən məhv edilib.

Qeyd edək ki, Türkiyə Silahlı Qüvvələri dünən axşam saatlarında Suriyanın şimal-qərbində yerləşən Afrin bölgəsində "Zeytun budağı" adlı hərbi əməliyyata başlayıb.

**AZƏRTAC-ın materialları əsasında**

*Gənc əsgərlərin hazırlığı*

# Nizam-intizam vacib şərtdir

*"Nizam-intizam sıradan başlanır". Bu sözləri "N" hərbi hissəsində gənc əsgərlərə sıra hazırlığı keçən leytenant Əli Orucovdan eşitdim. Sıra meydanından gələn səslər, demək olar ki, hərbi hissənin bütün ərazisinə yayılırdı. Sıra hazırlığının üsullarını öyrənən əsgərlərin ritmik ayaq səsləri hər kəsin diqqətini cəlb edirdi. Gənclərin ayağını eyni məqamda yerə vurmasından yaranan səs dalğası və verilən komandaları cəld yerinə yetirmələri adamda xoş ovqat aşılayır. Əsgərlərin baxışlarındakı qüruru izlədikcə belə vətənpərvər, igid oğulların qarşısında heç vaxt düşmənin tab gətirə bilməyəcəyinə və tezliklə qələbə qazanacağımıza əmin oluram.*



Fürsətdən istifadə edərək zabit və əsgərlərlə həmsöhbət oluram. C.Naxçıvanski adına Hərbi Liseyin və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin məzunu olan gənc zabitin kifayət qədər bacarıqlı və savadlı olması seçdiyi peşəyə ürəkdən bağlılığından yaranır.

- Sıra müqəddəsdir, - zabit deyir. - Hərb peşəsinin ən mühüm və vacib şərtlərindən biri nizam-intizamdır ki, bu da sıradan başlanır. Hər gün məşğələyə başlamazdan əvvəl bu sıralarda bir vaxtlar Mübarizlərin, Çingizlərin, Raqufların, Samidlərin və onlar kimi Vətən uğrunda canlarından keçən neçə-neçə qəhrəmanın dayandığını şəxsi heyətə izah edir, sıranın müqəddəsliyindən danışıram. Hərbi bilikləri öyrətməklə yanaşı, əsas vəzifələrimizdən biri də xidmətə gələn hər bir gəncə vətənpərvərlik, döyüş ruhu, milli-mənəvi dəyərlərimizi aşılamaqdır ki, bu istiqamətdə də daim iş aparırıq. Gördüyünüz kimi, bugünkü məşğələmizdə əsgəri salamlaşma, hərəkətdə dönmələr və digər sıra vərdişləri əsgərlərə öyrədilir. Sırada dayanan hər bir əsgər yüksək bacarıq nümayiş etdirir, verilən tapşırıqların öhdəsindən uğurla gəlir. Seçdiyim peşəmlə fərəhlənir, Azərbaycan Ordusuna layiqli zabit olmaq üçün var qüvvəmi əsirgəmirəm.

Hərbi xidmətə Bakı şəhərindən çağırılan əsgər Fuad Mehdiyev ilə söhbətləşirəm.

- Əsgəri xidmət keçmək, torpaqlarımızı göz bəbəyi kimi qorumaq bizim övladlıq borcumuzdur, - Fuad deyir. - Vətənin keşiyində dayanmaq kimi müqəddəs vəzifə tapşırılıb bizə. Bu vəzifənin öhdəsindən layiqincə gəlmək üçün keçirilən məşğələlərdə fəal iştirak edir, intizamlı əsgər olmağa çalışırıq. Sıra hazırlığını, silahlardan istifadə etməyi, döyüş bacarıqlarını uğurla öyrənirik. Bütün məşğələlərə həvəslə yanaşaraq, bacarıqlı əsgər kimi formalaşıram. Düşmənə nifrət hissi ilə xidmət edirəm, döyüş əmri alan kimi mən də öndə vuruşacaq, şəhid qardaş-bacılarımızın qisasını alacağam.

Tacir Məmmədov da əsgər olmağın sevincini yaşadığını bildirir. "Əsgər olmaq hər birimizin uşaqlıq arzusudur. Hərbi formanı geyinib, qürur mənbəyimiz olan ordumuzun sıralarında dayanmaqdan böyük sevinc ola bilməz. Günlər keçdikcə təcrübəli əsgər kimi formalaşır, yeni-yeni döyüş vərdişlərinə yiyələnirik. Səngərdə döyüş növbəsi aparacağım günü səbirsizliklə gözləyirəm. Bu gün sıra meydanında öyrədilən nizam-intizama xidmətim boyu əməl edəcək, Vətənimizin, ordumuzun adına layiq əsgər olub, valideynlərimin başını uca edəcəyəm."

Artıq fasilə vaxtı bitir. Leytenant Ə.Orucovun komandası ilə əsgərlər cəld şəkildə təyin olunmuş yerdə yenidən düzülürlər və bununla da sıra hazırlığı davam edir. Söhbətləşdiyim əsgərlərin hər birinin ürəklərində sonsuz Vətən sevgisini də hiss edirəm. Onlar hərbi xidmətə bir amalla - torpaqlarımızı işğaldan azad etmək üçün gəliblər. Və artıq xidmətləri ilə sübut edirlər ki, Azərbaycan əsgəri vətənpərvər, qorxmaz və cəsurdur. O, Vətən uğrunda hər an döyüşə atılmağa hazırdır.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

## "Ermənistan mətbuatının yaydığı xəbərin heç bir əsası yoxdur"

Ermənistan mətbuatının guya Azərbaycan tərəfinin cəbhə xəttində pilotsuz uçuş aparatlarından istifadə etməklə erməni mövqelərinə mina zərbələri endirilməsi barədə yaydığı xəbərin heç bir əsası yoxdur və bu yalan informasiyadır.

Müdafiə Nazirliyinin mətbuat xidməti AZƏRTAC-nın sorğusuna cavab olaraq bildirib ki, Azərbaycanın kəndlərinin düşmən tərəfindən atəşə tutulması barədə verilən xəbərdən dərhal sonra ermənilər bu kimi dezinformasiya yayıblar.

Bildirilib ki, Azərbaycan Ordusu cəbhə xəttində atəşkəs rejiminə tam riayət edir: "Düşmənin iddia etdiyi kimi əgər tərəfimizdən bu cür tədbir həyata keçirilərdisə, o zaman Ermənistan qoşunlarının çoxsaylı itkilərə məruz qalması qaçılmaz olardı".

# Hərbi texnikalar, silahlar



## "MASADA" tapançası

İsrail şirkəti müasir tapança istehsal edib. "Armyrecognition.com" portalının məlumatına görə, "Defence Security-2017" sərgisində "MASADA" adlanan tapançanın təqdimatı keçirilib.

Müasir silah armaturlaşdırılmış şüşəplastik polimerdən hazırlanıb və yüksək temperatur təsirindən mühafizə olunur. Onun əsas xüsusiyyətlərindən biri təhlükəsiz olmasıdır. Silahın tutacağında və buraxıcı qarmağında qoruyucu sistemdən istifadə edilib.

## PL-15K tapançası

PL-15 adı altında məşhur olan silah ilk dəfə "Ordu-2015" forumunda nümayiş etdirilib. İki ildən sonra isə Kalaşnikov konserni tərəfindən bu silahın PL-15K təyinatını almış versiyası işlənilib. İstehsalçılar bu müasir silahın qısa müddət ərzində hazırlanmasını və yaxın vaxtlarda ilk atışını da qeyd ediblər.

PL-15K tapançasının uzunluğu 18 sm, eni 13 sm, təchiz olunmadan çəkisi 720 qramdır. Silahda 9x19 mm kalibrli güllələrdən istifadə olunur, maqazini 14 patron həcmindədir. Asanlıqla tapançanın lüləsini, nişangah qurğusunu dəyişmək olar, onun üzərində fənər, lazer hədəf göstəricisi və səsboğucu aksesuarlar da quraşdırmaq olar.



**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan atleti "Kuldiga Catherines Cup" beynəlxalq turnirinin qızıl medalına sahib olub



Latviyada atletika üzrə "Kuldiga Catherines Cup" beynəlxalq turniri keçirilib.

Səkkizinci dəfə təşkil olunan yarışda ölkəmizi 60 metr məsafəyə sədlərlə qaçış yarışlarında Rahib Məmmədov təmsil edib.

Məşqçi Elvin Əliyevin rəhbərliyi altında mübarizə aparan atletimiz 8 saniyə nəticə ilə turnirin qızıl medalına sahib olub.

İlk üçlüyü litvalı idmançılar Saulius Rapolas və Vrasinskas Martinas tamamlayıblar.

Qeyd edək ki, turnirdə 17 ölkədən 200-dən artıq atlet qalib adı uğrunda yarışıb.

## "Qəbələ"nin döyüşçüsü Pərviz Abdullayev növbəti qələbəsini qazanıb



"Qəbələ" idman klubunun döyüşçüsü Pərviz Abdullayev növbəti qələbəsini qazanıb.

İdmançımız bu dəfə Türkiyədə uğur əldə edib. O, Mersin şəhərində təşkil olunan muay-tay yarışında qüvvəsini sınayıb. Turnirdə 75 kiloqram çəki dərəcəsində çıxış edən P.Abdullayev Türkiyə təmsilçisi İsmayıl Uzuner ilə qarşılaşıb. Pərviz bu döyüşdə qalib gələrək, rinqi qələbə ilə tərk edib.

## Həndbol üzrə Azərbaycan çempionatında favoritlər etimadı doğrultdublar

Qadın həndbolçular arasında Azərbaycan çempionatında mübarizə davam edir.

Yanvarın 21-də keçirilən hər iki qarşılaşmada favoritlər qələbə qazanıblar. "Azərsu" komandası "İdman Akademiyası" kollektivini 27:20 hesabı ilə məğlub edib. "Gənclərbirliyi" - "Qarabağ" görüşü isə qonaqların 35:26 hesablı qələbəsi ilə yekunlaşıb.

## Futzalçılarımız İran yığması ilə iki yoxlama oyunu keçirəcək



Futzal üzrə Avropa çempionatının final mərhələsinə hazırlığını Bakıda davam etdirən Azərbaycan millisi yanvarın 23-də və 24-də İran yığması ilə iki yoldaşlıq oyunu keçirəcək.

İlk oyunu hakim Yusif Nurullayev, Hikmət Qafarlı və Ramil Namazov, ikinci qarşılaşmanı isə Elçin Səmədli, Ramil Namazov və Yusif Nurullayev idarə edəcəklər.

Bakı İdman Sarayında keçiriləcək hər iki qarşılaşma saat 21:00-da başlayacaq.

Qeyd edək ki, Azərbaycan millisi yanvarın 30-dan fevralın 10-dək Sloveniyanın paytaxtı Lyublyanada keçiriləcək Avropa çempionatının final mərhələsində iştirak edəcək. Joze Alesio Da Silvanı rəhbərliyi etdiyi kollektiv qrup oyunları çərçivəsində fevralın 2-də Fransa, fevralın 4-də isə İspaniya yığması ilə qarşılaşacaq.

## Millimiz "Antalyaspor"a qalib gəlib

Hazırlığını Antalyada davam etdirən futbol üzrə 17 yaşadək qızlardan ibarət Azərbaycan milli komandası yoldaşlıq oyunu keçirib.

Komandamız "Antalyaspor"un qızlardan ibarət U-19 komandası ilə qarşılaşıb və 3:2 hesabı ilə qələbə qazanıb.

Millinin heyətində Birgül Çelik dubl edib. Bir dəfə isə avtoqol qeydə alınıb.

**AZƏRTAC-ın**
**materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Fuad CƏFƏROV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 19
Nüsxə 3550